# "Əsli və Kərəm" dastanında Qara Keşiş:
## tarixi reallıqlar prizmasında ruhani statusu və etnik mənsubiyyəti

**Azərbaycan xalq ədəbiyyatının ən möhtəşəm nümunələrindən biri olan "Əsli və Kərəm" dastanı sadəcə iki gəncin nakam məhəbbətindən bəhs etmir, həm də dövrün sosial, dini və etnik mənzərəsini özündə yaşadır. Bizim araşdırmalarımıza əsasən, dastanın mərkəzi mənfi obrazı olan Qara keşişin kimliyi, onun dini rütbəsi və mənsubiyyəti həm ədəbiyyatşünaslıq, həm də tarix baxımından böyük maraq kəsb edən bir mövzudur. Bu tədqiqat yaddaşın külü altındakı həqiqətləri üzə çıxararaq Qara keşiş və alban kimliyinin intibahını təmin edir. Dastanın kökləri Saka-Skif və qədim Albaniya dövrünə qədər gedib çıxır ki, burada Qara keşiş obrazında qədim kahin və şaman elementlərinin qorunub saxlanılması müşahidə olunur. Bu baxımdan, keşişin dini iyerarxiyadakı yerini və onun Qafqaz Albaniyası ilə bağını təhlil etmək tarixi reallıqların bərpası üçün mühüm əhəmiyyət daşıyır.**



Erməni Həvari (Qriqoryan) kilsələrində ruhanilər kəskin şəkildə iki qrupa bölünürdülər: dünyəvi ruhanilər (kahanalar) və subay ruhanilər (abeğalar və ya rahiblər). Dünyəvi ruhanilər ailə qura bilər, xalqın içində yaşaya və vaftiz, nikah kimi dini ayinləri icra edə bilərdilər. Lakin burada əsas şərt evliliyin keşiş rütbəsi almazdan əvvəl baş tutması idi. Subay ruhanilər isə subaylıq əhdi verir və monastırlarda yaşayırdılar; kilsənin ali rəhbərliyi olan yepiskop və katalikoslar yalnız bu qrupdan seçilirdi. Dastandakı Qara keşiş obrazını "abeğa" (subay rahib) kateqoriyasına aid etmək qətiyyən mümkün deyil. Bunun əsas səbəbi onun ailəli olması və Əsli adlı qızının varlığıdır ki, o, kilsə qanunlarına görə "kahana" (evli keşiş) statusunda təsvir olunur. Erməni kilsəsindən fərqli olaraq, 488-ci il Aqvan (Alban) Kanonlarına görə alban ruhaniləri evlənə bilərdilər ki, bu da Qara keşişin birbaşa alban ruhanisi olduğuna sübutdur. Onu sıravi bir keşişdən fərqləndirən əsas amil isə malik olduğu geniş dünyəvi səlahiyyətlər və böyük mülkiyyətdir. "Qara" epiteti isə onun dini rütbəsi ilə deyil, dastan personajı kimi daşıdığı mənfi xarakter, inadkarlıq və bədbəxtlik gətirən rolu ilə bağlıdır.

Dastanda hadisələrin mərkəzi kimi Gəncə şəhərinin seçilməsi və keşişin burada böyük mülkiyyətə sahib olması onun yerli alban feodalı (məlik) təbəqəsinə aidiyyətini göstərir. Baxmayaraq ki, Qafqaz Albaniyası bir dövlət kimi təxminən VIII-IX əsrlərdə siyasi səhnədən çıxmışdı, onun dini təsisatı olan Alban Həvari Kilsəsi yaşamalı oldu. Bu kilsə erməni kilsəsindən asılı olmayan, müstəqil (avtokefal) bir qurum idi. Uzun müddət müxtəlif yerlərdə, məsələn, Çola və Bərdədə fəaliyyət göstərdikdən sonra, XIV əsrdən etibarən onun mərkəzi Qarabağdakı Gəncəsər monastırı olmuşdur. XVI-XVII əsrlərdə Səfəvi şahları öz fərmanlarında bu kilsənin rəhbərini məhz "Alban Katalikosu" və ya Gəncəsər katalikosu kimi tanıyırdılar. Səfəvi dövləti üçün Gəncəsər katalikosu regionun ən nüfuzlu xristian rəhbəri idi və ona müraciət forması rəsmi olaraq "Qafqaz Albaniyasının rəhbəri" şəklində idi. 1836-cı ilə qədər bu status rəsmi olaraq heç bir şübhə doğurmurdu. Həmin dövrdə Albaniya dövləti olmasa da, Albaniya əsilzadələrinin varisləri olan Xaçın, Vərəndə, Dizaq, Çiləbörd və Gülüstan kimi məlikliklər mövcud idi. Özlərini qədim alban hökmdarlarının varisləri hesab edən bu məliklər Gəncə bəylərbəyliyinə (Ziyadoğlu Qacarlara) tabe olsalar da, dini baxımdan məhz Gəncəsərdə oturan Alban katalikosuna bağlı idilər.

Qara keşişin Alban kilsəsinə mənsubluğunu təsdiqləyən bir neçə faktor mövcuddur ki, bunlardan birincisi mülkiyyət hüququdur. 488-ci ildə qəbul edilmiş Aquen Kanonlarına görə, alban keşişlərinin xüsusi torpaq mülkiyyəti və miras hüququ var idi. Dastanda Qara keşişin böyük bir sərvətə və "xəzinədar" statusuna malik olması bu qanunlarla səsləşir. Həmçinin, Qara keşiş obrazı daha çox həmin dövrün Alban məliklərinə (yerli xristian feodallarına) bənzəyir. Onlar həm dini, həm də siyasi nüfuza malik idilər və yerli türk xanları ilə sıx təmasda olurdular. Lakin bu tarixi yaddaş 1836-cı ildən sonra ciddi şəkildə təhrif edilmişdir. Çar Rusiyası kilsənin müstəqilliyini ləğv edərək onu erməni kilsəsinə birləşdirmiş və bütün mülkiyyətini bu kilsəyə vermişdir. Məhz bu tarixdən sonra həm "Alban kilsəsi", həm də "Alban ruhanisi" anlayışları rəsmi sənədlərdən çıxarılmış, xalq yaddaşındakı yerli keşiş obrazları süni şəkildə erməniləşdirilmişdir.

Nəticə etibarilə, "Əsli və Kərəm" dastanındakı Qara keşiş obrazı Azərbaycanın xristian-alban keçmişinin, itirilmiş Qafqaz Albaniyası mədəniyyətinin və yerli feodal-ruhani təbəqəsinin ədəbi inikasıdır. Onun ailəli olması, Gəncə sarayındakı mövqeyi və mülkiyyət sahibi olması bu personajın məhz yerli Alban mühitindən doğduğunu sübut edir. Bu yanaşma dastanlarımızın təkcə folklor nümunəsi deyil, həm də itirilmiş tarixi gerçəkliklərin qoruyucusu olduğunu bir daha göstərir. Qara keşiş obrazının bu prizmadan təhlili Azərbaycanın zəngin tarixi irsinin bərpası və alban kimliyinin doğru şəkildə tanıdılması üçün əvəzsizdir.

**Elnur HEYDƏROV**
**filologiya üzrə fəlsəfə doktoru**